# İSA HƏBİBBƏYLİ – 70



2019-cu ilin oktyabr ayının 16-da Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış ictimai-siyasi xadimi akademik İsa Əkbər oğlu Həbibbəylinin 70 yaşı tamam oldu.

İsa Həbibbəyli 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının (hazırda Naxçıvan Dövlət Universiteti) Azərbaycan dili və ədəbiyyatı ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir.

İsa Həbibbəyli 1980-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda namizədlik, 1996-cı ildə isə "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda doktorluq dissertasiyalarını böyük uğurla müdafiə etmişdir. İsa Həbibbəyli 1997-ci ildə professor elmi adını almış, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2003-cü ildə isə həqiqi üzvü seçilmişdir

Akademik İsa Həbibbəyli müxtəlif problemlərə həsr olunmuş 12 monoqrafiyanın, 1 dərsliyin, 2 dərs vəsaitinin, 1000-dən çox elmi məqalənin, 27 broşüranın müəllifi, 46 kitabın tərtibçisi, çoxsaylı kitabların redaktoru və elmi məsləhətçisidir.

Görkəmli alim, bacarıqlı təhsil və elm təşkilatçısı 1996-2013-cü illərdə Naxçıvan Dövlət Universitetinə rəhbərlik etmişdir. O, 2013-cü ildən AMEA-nın vitse-prezidenti, eyni zamanda Nizami adına Ədəbiyyat İnstitutunun direktorudur.

Görkəmli alim ilk dəfə olaraq Azərbaycan ədəbiyyatında satiranın ədəbi növlərdən biri olduğunu nəzəri cəhətdən əsaslandırmış, bu ədəbi növün özünəməxsus janrlarını müəyyən etməyə nail olmuşdur.

Akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyasını yüksək elmi səviyyədə işləyib hazırlaması və özünün müəyyən etdiyi meyarlar əsasında milli ədəbiyyat tarixinin inkişaf mərhələlərini müəyyənləşdirməsi də böyük əhəmiyyət daşıyır.

Akademik İsa Həbibbəyli görkəmli yazıçı C.Məmmədquluzadənin həyatı və yaradıcılığının, onun müasirləri və mollanəsrəddinçi ədəbiyyatın əsas tədqiqatçılarından biri sayılır. Alimin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası bu sahədə elmi hadisə və ən sanballı ədəbiyyatşünaslıq əsəri kimi qəbul olunur. Akademik İsa Həbibbəyli eyni zamanda C.Məmmədquluzadənin yaxın vaxtlaradək elm aləminə bəlli olmayan bir neçə dram əsərini, felyeton və məqalələrini, ayrı-ayrı şeir və məktublarını ilk dəfə üzə çıxarıb çap etdirərək elmi dövriyyəyə gətirmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında qələmə aldığı "Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti" (1998), "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (2002), "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr"

(2013), "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" (2018, 2 cilddə, kollektiv) kitabları akademik İsa Həbibbəylini elmi-ədəbi mühitdə Heydər Əliyev məktəbi ideallarının ləyaqətli davamçılarından biri kimi tanıdır.

Akademik İsa Həbibbəylinin gərgin elmi axtarışlarının nəticəsi olan "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" adlı fundamental araşdırması bu aktual problemi ilk dəfə sistemli şəkildə ortaya qoymağa və onun möhkəm elmi əsaslarla həllinə xidmət edir.

Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə "Azərbaycan ədəbiyyat tarixi" oncildliyinin 1-ci cildi, ilk dəfə ərsəyə gətirilən irihəcmli "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" adlı sanballı araşdırmanın iki cildliyi, "Ədəbi proses" elmi müşavirəsinin materialları (5 cilddə) çap edilib elmi ictimaiyyətə çatdırılmış, eləcə də "Molla Nəsrəddin" ensiklopediyası, "Gülüş antologiyası" hazırlanmışdır.

Tanınmış ədəbiyyatşünas alim İsa Həbibbəylinin ölkəmizdə gənc elmi kadrların hazırlanması sahəsində də böyük xidmətləri vardır. O, indiyədək 4 nəfər elm-lər doktorunun və 29 nəfər fəlsəfə doktorunun elmi rəhbəri olmuşdur.

Akademik İsa Həbibbəyli beynəlxalq miqyasda tanınan Azərbaycan alimlərindən biridir. Belə ki, o, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun müxbir üzvü, Cənubi Rusiya Universitetinin fəxri doktorudur. Almaniyada nəşr edilən "Mədəniyyət", Türkiyədə çap olunan "Qardaş qələmlər", Moskvada çıxan "Beynəlxalq elmi jurnal" nəşrlərinin redaksiya heyətinin üzvüdür.

Akademik İsa Həbibbəylinin çoxşaxəli və səmərəli elmi fəaliyyəti Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Görkəmli alim "Əməkdar elm xadimi" fəxri adına, "Şöhrət" və "Şərəf", 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə layiq görülmüşdür. İsa Həbibbəyli həmçinin "Azərbaycan Respublikası Milli Məclisinin 100 illiyi", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalları ilə təltif edilmiş, Mahmud Kaşğari adına Beynəlxalq Fondun "Mahmud Kaşğari", TÜRKSOY-un "Molla Pənah Vaqif", Qazaxıstan Respublikasının "Qazaxıstan Respublikasının müstəqilliyinin 25 illiyi", Qazaxıstan Milli Universitetinin "Əl-Fərabi" medalları, Beynəlxalq Türk Akademiyasının gümüş medalı və İran İslam Respublikasının Təbriz Universitetinin "Məhəmmədhüseyn Şəhriyar" medalına, Azərbaycan Yazıçılar Birliyinin Rəsul Rza mükafatına layiq görülmüşdür.

Akademik İsa Həbibbəyli həmçinin Oksford Universitetinin "Elmdə ad" mükafatının və "Beynəlxalq Sokrat mükafatı"nın laureatıdır. O, eyni zamanda Türkiyə Dil Qurumu tərəfindən "Türk dünyasına xidmət" diplomu, Rusiya Elmlər Akademiyası tərəfindən "Derjavin" mükafatı, həmçinin AMEA-nın, Təhsil Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin (1997-2005), III (2005-ci il), IV (2010-cu il) və V (2015-ci il) çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Elm və təhsil komitəsinin sədri olmuşdur.

Görkəmli alimi, bacarıqlı elm təşkilatçısı və ictimai-siyasi xadimi anadan olmasının 70 illiyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yeni elmi yaradıcılıq uğurları arzulayırıq.

*Möhsün Nağısoylu*